# Kredo

1

5 noyabr / 2021


## Yurdum Azərbaycandır!

Dilimin şirin sözü ilhamıma mayadır,
Qəlbimin qanadıdır, yurdum Azərbaycandır.
Babalardan əmanət nəsillərə yadigar
Nəvəmin muradıdır - yurdum Azərbaycandır.

Azadlığın eşqinə bu yarpağı oxu sən!
Vətənimin adını - bir torpağı oxu sən!
Arzumun, niyyətimin bil irmağı, oxu sən!
Yamyaşıl bir vadidir - yurdum Azərbaycandır.

Bu dünyaya açılan gözlərim, kitabımdır.
Hər sözü can yandıran közlərim kitabımdır
Dədə Qorqud adında sözlərim kitabımdır
Cavad, Cavid, Hadidir - yurdum Azərbaycandır.

Tarixi od içində yanan odlu diyardır
Həsrəti sinəm üstə acı dərddir, qubardır
Əziz atam, anamdır, o gül üzlü bir yardır,
Ruhumun inadıdır - yurdum Azərbaycandır.

Bəxti Qara yazıdır, Borçalıdır, Göyçədir
Dərbənd türkün tarixi, başı üstə göy çətir.
Qarabağ bir yaradır, dərdi göm-göy göycədir
Canımın can adıdır - yurdum Azərbaycandır.

Şir ağzından tac qapar, Bəhram Gur qeyrətində
Qayalar parçalanar Bisütun heyrətində.
Külüngü dağlar yarar Şirinin həsrətində;
Eşqimin Fərhadıdır - yurdum Azərbaycandır.

Unudulan tarixin çözülən yaddaşıdır,
Turanda qançəkəri soydaşı, qardaşıdır.
Şeirimin, sözümün əbədi bas daşıdır.
Xələfli fəryadıdır - yurdum Azərbaycandır.

## Azərbaycan əsgəri!

Qalx ayağa yeriş et, hücum marşı səslənsin,
Bəsdir tarixi yordum, Azərbaycan əsgəri!
Kimliyini bəyan et, düşmən səddini yar, keç,
Deyim yağını vurdum, Azərbaycan əsgəri!

Harayınla cavab ver torpağın yurdcanına,
Od düşsün yağıların varlığına, canına.
Ula, dağlar titrəsin səsin həyəcanına,
Türkərəni boz qurdum, Azərbaycan əsgəri!

Sevgimlə süsləmişəm ulduzunu, ayını
Yer üzündə tapmaram sənin bircə tayını;
Canınla qoruduğun bu Vətən sarayını
Sənin sayəndə qurdum, Azərbaycan əsgəri!

Keşikdə dayanmısan Vətən başlanan yerdə
Əldə silah durmusan, torpaq daşlanan yerdə.
Güllələrə sipərsən səngər tuşlanan yerdə
Torpağım, evim, yurdum, Azərbaycan əsgəri!

Eşqimin sahibisən, örtülü sirr əvəzi,
Qəlbimin hakimisən, minimin bir əvəzi;
Məkkəmsən, Mədinəmsən, ən uca pir əvəzi,
Sənə təzimə durdum, Azərbaycan əsgəri!

Adın çəkilən yerdə varam deyənə sahib,
Səni bağrına basıb özü öyənə sahib;
"Mən sahibəm" söyləyən hər kəsə yenə sahib,
"Sən" - dedi, kimdən sordum, Azərbaycan əsgəri!

Qəlbimin döyüntüsü sənin yeriş ahəngin
Dil əməl birliyində - düşüncədə hər rəngin;
Xələfliyə armağan qürur, hünər çələngin,
Vətənə dayaq durdum, Azərbaycan əsgəri!



## Haray bayraq

Qanında bir qeyrət, təpər gəlirsə,
Doğulan, göz açan - oğuldu bayraq.
Min acı üstündə şirin gəlirsə,
Bayramdı, Novruzdu, noğuldu bayraq.

Qalxmağında, enməyində yaşayan,
Dalğasında könülləri oxşayan.
Yaddaşında ağrı yükü daşıyan
Sözdü, əfsanədi, nağıldı - bayraq.

Hədəfi gözündən düz vurmadısa,
Əsgər xain gözə bozarmadısa.
Şəhidin qanında qızarmadısa,
Rəngi soldu getdi, ağ oldu bayraq.

Məsləkin yanında özü təkdisə,
Vətən ağrısını tənha çəkdisə.
Yasasız bir millət, Vətən çökdüsə,
Dövlət sarayıdı - dağıldı bayraq!

Qüruru əyilməz, vüqarı yenməz,
Düzdən üz çevirməz, doğrudan dönməz.
Yanar ürəklərdə, işığı sönməz,
Neçə dərdin üstə dağ oldu bayraq!

Tikanlar üstündə oxudu bəlkə,
Bülbül sinəsini toxudu bəlkə...
Özü ölməzlərin ruhudu bəlkə,
Təmkindi, hikmətdi, ağıldı bayraq!

Qüruru ucalar ucalığında
Yenilməz qüdrəti qocalığında.
Vətənin kədərli, dərdli çağında
Ümidə, inama dağ oldu bayraq!

Neçə daş üstündə tarix yazıldı,
Demə ki, yazıldı, niyə az oldu?
İllər də göyərdi, fəsil yaz oldu,
Daş da gül toxudu - çağ oldu bayraq.

Al güllər bitirdi çəmənlər üstə,
Arzuda, istəkdə çimənlər üstə.
Göy üstə al gəldi, yaşılı dəstə,
Azadlıq bağçası - bağ oldu bayraq!

Səs bayraq, haray bayraq,
Ulduz bayraq, ay bayraq.
Qan çəkər boyçəkəri
Türk, turan, Altay bayraq.

Əli Rza XƏLƏFLİ